# Avropa 3 ildir Azərbaycan qazı alır

## Yeni çağırışlar qarşısında mavi yanacağa tələbatın artması kompleks tədbirlərin görülməsini tələb edir



**2020-ci il dekabrın son günündən TAP (Trans-Adriatik Qaz Boru Kəməri) Azərbaycan qazını Avropaya çatdırır. Qoca qitə yeni mənbədən, yeni marşrutla mavi yanacaq alır.**

TAP-ın fəaliyyətə başlaması ilə "Cənub qaz dəhlizi" qələbə çaldı. Sonuncu seqment olduğundan bu kəmər 3500 kilometrlik möhtəşəm 1ayihəni tamamladı. Belə ki, "Cənub qaz dəhlizi" Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qazı Gürcüstandan keçməklə Türkiyəyə və oradan da Avropaya daşıyan üç kəmərdən - genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri), TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-dan ibarətdir.

TAP uzun məsafə qət edərək Azərbaycan qazını İtaliyanın cənubuna, bu ölkədən də Qərbi Avropaya çatdırır. Bu, uzunluğu təxminən 878 kilometr olan boru xəttidir. Onun 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçir. Xəttin bir neçə kilometrlik hissəsi İtaliyada quru sahəyə çıxır. Burada kəmər "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsi ilə birləşir. Boru xətti üç ildir fasiləsiz və təhlükəsiz fəaliyyət göstərir.

Bu il mayın 31-də 28-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin açılışında Prezident İlham Əliyevin dediyi kimi, hələ görüləcək işlər də çoxdur: "TANAP genişlənməlidir, TAP genişlənməlidir. Bizim digər Avropa boru kəmərlərinə də çıxışımız olmalıdır və Balkanlarda belə bir çıxışımız olmalıdır. Avropada interkonnektorların sayı mütləq artırılmalıdır. Bütün bu məsələlər əlaqələndirilmiş şəkildə həyata keçirilməlidir. Çünki biz burada böyük sərmayə qoymalıyıq. Ona görə biz əmin olmalıyıq ki, hasil etdiyimiz əlavə qazın, planlaşdırmadığımız həcmlərin, - biz ancaq artan tələbatı nəzərə alaraq bunu hasil edirik, - real alıcısı olacaqdır. Ona görə də biz bu komanda işini davam etdirməliyik".

2022-ci il oktyabrın 1-də Azərbaycan təbii qazını Bolqarıstana nəql edən Yunanıstan-Bolqarıstan İnterkonnektorunun (IGB) açılışı bu istiqamətdə atılan mühüm addım oldu. IGB-nin reallaşması TAP-ın inkişafında mühüm bir mərhələnin başlanğıcı, "Cənub qaz dəhlizi"nin yeni qollarla şaxələnməsinin göstəricisi kimi dəyərləndirilir. Xatırladaq ki, "Bulgargaz EAD" "Şahdəniz-2" çərçivəsində ildə 1 milyard kubmetr qazın alınması ilə bağlı 2013-cü ilin sentyabrında 25 illik saziş imzalayıb. 2019-cu ilin mayında isə Bolqarıstanın Kirkovo bölgəsində interkonnektorun təməlqoyma mərasimi keçirilib.

IGB-nin açılışı Bolqarıstanın, ümumən Cənub-Şərqi Avropanın şaxələndirilmiş enerji təchizatında, istehlakçıların sərfəli və təmiz enerjiyə çıxışında strateji əhəmiyyətli hadisədir. Başqa sözlə, IGB qarşıdakı illərdə "Cənub qaz dəhlizi"nin genişləndirilməsi istiqamətində yeni layihələrin müjdəçisidir. Dövlətimizin başçısı bu layihəni yüksək dəyərləndirir: "Bunun nəticəsində artıq Azərbaycan Bolqarıstana da qaz nəql edəcək. Biz Bolqarıstan vasitəsilə digər ölkələrə də qazın nəqli imkanlarını nəzərdən keçiririk və tezliklə qonşu ölkələrə də bizim qazımız nəql ediləcək. Rumıniya artıq bu əməkdaşlıq formatının üzvüdür. Hər şey plana uyğun getsə və bütün interkonnektorlar vaxtında inşa edilsə, - yəni bu ilin sonuna qədər, - bizim qazımız Macarıstana və Serbiyaya nəql ediləcək. Bununla da bizim qaz ixracımızın coğrafiyası genişlənəcəkdir".

İxrac infrastrukturunun genişləndirilməsi məsələsini zaman gündəmə gətirib. Məlumdur ki, Azərbaycan qazına tələbat getdikcə artır. Bu gün Azərbaycan 6 ölkəyə - Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana, İtaliyaya və Rumıniyaya qaz ixrac edir. Ölkəmizdən qaz idxal etmək istəyən daha neçə-neçə ölkədən müraciətlər alınır. Yeni çağırışlar qarşısında qaza tələbatın artması və bu ehtiyacın ödənilməsi isə kompleks tədbirlərin görülməsini tələb edir.

Azərbaycan qazının Balkan ölkələrinə nəql olunması üçün İon-Adriatik qaz kəmərinin də tikintisi nəzərdə tutulub. Bu, TAP-ın davamı olacaq, Albaniyadan keçərək Azərbaycan qazını Xorvatiya, Monteneqro, Bosniya və Herseqovinaya çatdıracaq. Kəmərin tikintisinin 2025-ci ildə başa çatacağı gözlənilir.

Bu il aprelin 25-də Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimi keçirilib. Anlaşma memorandumu Azərbaycandan Avropaya əlavə qazın tədarükü üçün bu 4 ötürücü sistem operatoru ilə SOCAR arasında əməkdaşlığın istiqamətlərini müəyyən edir. Əlavə qaz tədarükü "Həmrəylik halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçiriləcək.

Planlar böyükdür. 2027-ci ilə qədər Avropa bazarına qaz təchizatımızı iki dəfə artırmaq nəzərdə tutulur. Bu, olduqca real rəqəmdir. Qaz ixracının dinamikasına nəzər salsaq görərik ki, ötən il Avropaya 8 milyard kubmetr mavi yanacaq göndərilmişdirsə, cari ildə 12 milyard kubmetr nəql ediləcək. Bu, ümumi ixracımızın yarısıdır və 2027-ci il üçün biz bu rəqəmi 20 milyarda çatdıracağıq. Bunun əsas mənbəyi Xəzərin Azərbaycan sektorundakı nəhəng "Şahdəniz" yatağıdır. Gələcəkdə "Şahdəniz"ə digər yataqların qoşulacağı da gözlənilir.

Bir sözlə, Azərbaycanın qaz ixracının artırılması getdikcə daha da aktuallaşaraq ən çox müzakirə olunan məsələlərdən birinə çevrilib. Təsadüfi deyil ki, bu günlərdə ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda da bu barədə geniş söhbət getdi. Prezident İlham Əliyev səsləndirilən sualların birinin cavabında dedi: "Avropa Komissiyası ilə biz müxtəlif sahələrdə işləyirik. Biri genişlənmə komissiyasıdır, burada çox fəal əməkdaşlığımız var, digəri isə enerji komissiyasıdır. Avropa Enerji Komissiyasının və Azərbaycanın energetika nazirinin sədrliyi ilə "Cənub qaz dəhlizi" üzrə mütəmadi olaraq Məşvərət Şurasının iclasları təşkil edilir. Növbəti görüş 2-3 aydan sonra yenidən Bakıda olacaq. Enerji qıtlığını nəzərə alaraq Avropa Komissiyasından Avropaya qaz tədarükünün artırılması ilə bağlı bizə xahiş daxil oldu. Biz mövcud qaz yataqlarının hasilatını artırmaq üçün böyük məbləğdə - demək olar ki, yüz milyonlarla, hətta milyardlarla avro vəsait ayırdıq. Həmçinin Avropaya daha çox qaz tədarük etməyimizə kömək edəcək amillərdən biri də enerji səmərəliliyi və bərpaolunan mənbələrdir. Nə qədər çox bərpaolunan enerji mənbələrimiz varsa, elektrik enerjisi istehsalı üçün istifadə etdiyimiz qaza bir o qədər qənaət edirik. Tezliklə Serbiya və Bolqarıstan arasında yeni mühüm bir interkonnektor olacaq və o, artıq hazırdır. Serbiya tezliklə Azərbaycan qazını qəbul edə biləcək, Macarıstan artıq Azərbaycan qazını qəbul edir, o cümlədən Rumıniya. Tərəfimizdən Albaniyada maliyyələşdirilən qazlaşdırma layihəsi başa çatdıqda, bu ölkə də Azərbaycan qazını alacaq". İtaliya, Bolqarıstan, Yunanıstan isə Azərbaycan qazını TAP-la artıq üç ildir alır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 10 dekabr, № 270.- S.12.